*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 309-316*

https://doi.org/10.62837/2026.3.309

**NOVRUZƏLIYEVA SEVDA CAID QIZI**
Azərbaycan Tibb Universiteti, dosent
E-mail: novruzaliyeva1966@gmail.com
Orcid kod: 0009 0007 9535 7799
**ƏLIYEVA NÜŞABƏ ƏJDƏR QIZI**
Azərbaycan Tibb Universiteti, baş müəllim
E-mail: nushabe.aliyeva@bk.ru
Orcid kod: 0009 0008 5052 4722

# HEYDƏR ƏLIYEV VƏ AZƏRBAYCAN ƏDƏBIYYATI

Niyyət əgər nik başəd padeşa ra,
Qohər xizəd be caye-qol giya ra.
Nizami Gəncəvi, farsca

Padşahın niyyəti gözəl olursa,
Otlar gül yerinə inci yetirər.
Hərfi tərcüməmiz

*Giriş.* Azərbaycanın 1969-2003-cü illər arası sosial, mədəni və siyasi həyatı ulu öndər Heydər Əliyevin yürütdüyü müdrik siyasətlə sıx bağlıdır. Azərbaycan xalqının gözə çarpan və diqqətlər çəkən elə bir ağrılı, elə bir sevincli hadisəsi yoxdur ki, orada Heydər Əliyev imzası olmasın. Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbi-bədii proseslərin keçdiyi istiqamət hər zaman ulu öndərin diqqət mərkəzində olmuşdur. Bu böyük şəxsiyyətin Azərbaycan mədəniyyəti, incəsənəti və ədəbiyyatı qarşısındakı xidmətlərini Azərbaycanın heç bir siyasi rəhbəri edə bilməmişdir.

*Tədqiqat.* Bu məqalənin 2 başlığı vardır – Bədii ədəbiyyat platonik güc olaraq, Azərbaycan ədəbiyyatında Heydər Əliyev himayəçi-lider kimi. İkinci başlıqda bir çox yarımbaşlıqlar yer alır. Hər iki başlıqla əlaqədar fikir və rəylərimizi söyləyər, müvafiq qənaət və nəticəni diqqətə çatdırırıq.

## Bədii ədəbiyyat platonik güc olaraq

Bədii ədəbiyyat – insan düşüncələrini, duyğularını, dünyaya baxışını, ağrılı-acılı günlərini, sevincli yaşantılarını Söz qanadında ifadə etmə sənətidir. Platonik bir varlıq olan bədii ədəbiyyat sehirli bir güc olan Sözdən qaynaqlanır, gözəllik-duyğu-obraz üçlüyünün sintezinə dayanaraq, "ruh-qəlb-zehin" üçlüyünə estetik iz qoyur.

Bədii ədəbiyyat dərin varlıq olan insanın iç yaşantılarını (düşüncə, hiss və duyğularını) motivasiya edən, yönləndirən və dilləndirən bir potensial, bir mənəvi yoldur. Tarixi, sosial və mənəvi dəyərləri Sözə çevirən bədii ədəbiyyat düşündürərək həyatı anladır, anladaraq həyatın acı və şirin səhifələrini açır, insan həyatına güc və məna qataraq, onu seçilən bir varlığa döndərir.

Nizaminin fəlsəfi-dünyəvi poemalarını, Nəsiminin irfani-fəlsəfi-dünyəvi qəzəllərini, Füzulinin irfani-fəlsəfi-dünyəvi poeziyasını oxuyarkən insan ruhu riqqətə gəlir, insan qəlbi estetik, yön verici və tərbiyə edici məqamlardan mənalar dənizinə baş vurur. Ruhun dərin qatlarında gizli yaşantıları sənətkar şair və sənətkar yazar

metaforalar, simvollar, təşbehlər, hiperbolalar, bədii obrazların dəstəyi ilə üzə çıxararaq insan zehninə ötürür. Gözəl bir poetik və nəsr örnəyini mütaliə edən bir fərd identifikasiya edir (özünü obrazlarda tapır), katarsis (emosional boşalma) yaşayır, təsəlli tapır (yaşanan qəm və qüssədən toxtanır), anlayışa çatır (dünyanı və özünü dərk etməyə başlayır). Ədəbiyyatşünas-akademik Nərgiz Paşayeva ədəbiyyatın insan həyatındakı vazkeçilməz rolundan söz açarkən vurğulayır ki, *"Bədii ədəbiyyatın, söz sənətinin bütün zamanlar boyu dəyişməz mövzusu, əsas predmeti insan olmuşdur. İnsanın həyatı, əməyi, sevgisi, mübarizəsi, dünya və gerçəkliklə münasibətləri tarix və sosiologiya kitablarından öncə bədii ədəbiyyatda öz əksini tapmışdır"* (1, s.8).

## Azərbaycan ədəbiyyatında Heydər Əliyev himayəçi-lider kimi

Ulu öndər Azərbaycan ədəbiyyatının inkişafı və istiqamətlənməsinə dərin və unudulmaz izlər qoyan dahi siyasi xadimdir. Onun bu ədəbi yöndə göstərdiyi çoxşaxəli siyasi-ictimai fəaliyyət dörd qola ayrılır:

1. Ədəbiyyatın platonik bir varlıq olaraq dövlət qatında dəstəklənməsi;
2. Ədəbiyyatda milli irs, milli ruh və özünüdərkin qorunması;
3. Ədəbiyyatda tərcümə siyasətinə geniş önəm və diqqət verilməsi;
4. Milliliyi saxlamaqla ədəbiyyatın beynəlxalq arenaya çıxışı.

Yazıçını cəmiyyətin mənəvi rəhbəri, ədəbiyyatı xalqın yaddaşı, fitri istedaddan doğan poeziya və nəsr örnəyini yüksək mənəvi yol sayan Heydər Əliyev ədəbiyyat-mədəniyyət yönlü nitq və çıxışlarında gəncləri mümkün qədər çox xarici dil öyrənməyə təşviq edirdi, bu şərtlə ki, onlar öncə Azərbaycan dilinə ürəkdən bağlı olub onu dərindən mənimsəsinlər, şair və yazıçılarımız, o sıradan Nizami-Füzuli-Nəsimi olmaqla dünyanın tanıdığı Azərbaycanın üç poeziya dahisini azərbaycanca mütaliə etsinlər. Gətirdiyimiz sitatdan aydın görünür ki, ulu öndər Azərbaycan gəncini əcnəbi dillər öyrənməyə çağırsa da, bundan önəmlisini ona tövsiyə edir: ana dilinə qəlbən bağlansın, poeziya-nəsr qanadlarında milli kimliyini və varlığını unutmasın, *"Gənclərimizi mümkün qədər xarici dil öyrənməyə təşviq edərdim. Amma buna qədər onlar öz ana dilini – Azərbaycan dilini bilməli, şair və yazıçılarımızı – Nizami, Füzuli, Nəsimi və başqalarını Azərbaycan dilində oxuya bilməlidirlər."* (2, s.20).

1981-ci ildə - Sovetlər Birliyinin gur çağlarında, Azərbaycanda rus dilinin hökmran bir statusu olduğu dönəmlərdə Azərbaycan yazıçılarının 7-ci Qurultayı keçirildi. Qurultayda çıxış edən Heydər Əliyev şair və yazıçılara beş bədii mesaj verdi: Azərbaycan ədəbi dilinin saflığı qorunsun; insanların nitq mədəniyyətinə qayğı göstərilsin; yazıçı – dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır; bir sıra yazıçılar bu tələblər səviyyəsində dura bilmirlər; ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər.

Aradan 45 il zaman kəsiyi keçsə də, proqramyönlü bu mesajlar indi də Azərbaycan dövlətinin qarşısında duran dil-ədəbiyyat problemləridir, *"Azərbaycan ədəbi dilinin saflığına, kütlələrin nitq mədəniyyətinə daim qayğı göstərilməlidir. Yazıçı – dilin, nitq mədəniyyətinin ədəbi normasının qanunvericisi olmalıdır. Təəssüf, elə yazıçılar var ki, bu tələblər səviyyəsində dura bilmirlər. Üstəlik, ayrı-ayrı yazıçılar təkcə danışıqlarında yox, həm də əsərlərində dil xətalarına yol verirlər"* (3, s.20).

Ədəbiyyat xalqın yolunu açan, ona işıq tutan, zülmətdən qurtaran bir mənəvi gücdür. Ədəbiyyat xalqın mənəviyyatına, mənəvi dəyərlərinin oyanışına, milli hisslərin baş qaldırmasına körpü salan bir potensialdır. Azərbaycan xalqının – azadlıqsevər bir xalqın özünüdərki, kimliyini anlaması, dost və düşmənlərinin kim olmasını, xalqın başına gələn acı və müsibətlərin hardan gəldiyini xalqımız ilk öncə Azərbaycan ədəbiyyatından xəbər tutub və tutur.

Ədəbiyyat, onun başında duran qüdrətli söz ustaları xalqın keçdiyi qaranlıqları aydınladan, qarşıda gələn ağrılı-acılı problemlərdən xalqı duyuq salan nur sahibləridir. 12-ci əsrdən – dahi Nizaminin dünyaya gəlişindən bu yana xalqımız ruhun cilası və qəlbin aynası olan ədəbiyyat sarıdan kasadlıq çəkmir, ulu şairlər və böyük yazarlar sarıdan korluq çəkmir. Qənaətimizcə, bu – ulu Tanrının Azərbaycan xalqına ən böyük inayətidir (mənəvi dəstəyidir). Azərbaycan ədəbiyyatının keçdiyi yolları yaxından izləyən, mütaliə edən, onun ruhundan tərbiyə alıb böyüyən ulu öndər Heydər Əliyev Azərbaycan ədəbiyyatının ünvanına diqqət çəkici fikirlər çox söyləyib, onlardan birini diqqətə çatdırırıq, *"Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir"* (2, s.14-15).

Ulu öndərin açıqlamasından bu anlaşılır ki, Azərbaycan ədəbiyyatı xalqımıza milli hissiyat və milli özünüdərk aşılayıb və aşılamaqdadır. Bu, xalq ilə ədəbiyyat arasında güclü bağlantının təzahürüdür.

Azərbaycan humanitar elmi ötən əsr böyük bir mənəvi yol keçmişdir. Cəfər Cabbarlı, Səməd Vurğun, Mirzə İbrahimov, Rəsul Rza... kimi şair və yazarlar, Firudin bəy Köçərli, Həmid Araslı, Məmmədcəfər Cəfərov, Əli Sultanlı... kimi ədəbiyyatşunas-alimlər, Bəkir Çobanzadə, Əbdüləzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Afad Qurbanov... kimi dilçi alimlər yetişmişlər. Bu böyük insanların humanitar irsini şair-yazar-ədəbiyyatşünas alim-dilçi alim ordusu 21-ci əsrdə davam etdirir. Demək, Azərbaycan ədəbiyyatı və dilinin taleyi güvənli əllərdə olub.

Ulu öndər yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz mənəvi insanların taleyüklü əməyini yüksək dəyərləndirərkən Azərbaycan yazıçılarının X Qurultayında (1997) vurğulayır, *"Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bu-günkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünaslarımızın,*

*dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci ildə danışılan dil deyil"* (3, s.23).

*Hüseyn Cavid ülvi şair kimi.* Azərbaycan ədəbiyyatında romantizm cərəyanın banisi olan Hüseyn Cavidin cənazəsi ulu öndər Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə 1982-ci ildə uzaq Sibirdən gətirilərək, doğulduğu Naxçıvanda torpağa tapşırıldı. Azərbaycan ədəbiyyatına töhfə verdiyi bədii incilərin qarşılığı olaraq Turan ideyasının türksevər Cavidinə möhtəşəm bir məqbərə ucaldıldı. Bu fakt ulu öndərin Azərbaycan ədəbiyyatına, bədii-ictimai düşüncəsinə tarixi bir ehtiramı olaraq stalinizm despotu üzərində nurun qələbəsi idi. *"Azərbaycan klassik ədəbiyyatının, o sıradan Hüseyn Cavidin mütərəqqi humanist ideyaları, bəşəri görüşləri, insansevər ənənələri ruhunda böyümüş Heydər Əliyev Azərbaycan xalqının əvəzedilməz liderinə çevrildikdən sonra öz haqq işində daim bu ənənələri rəhbər tutmuşdur"* (4, s.12).

*Səməd Vurğunun ev muzeyinin açılışı.* 1975-ci ilin oktyabr ayında ulu öndər Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Bakı şəhərində Azərbaycanın ilk xalq şairi Səməd Vurğunun ev muzeyinin açılışı oldu. Açılışa qatılan ulu öndər Vurğunun xalqımızın böyük şair olduğunu, ədəbi irsinin daim yaşayacağını vurğulamışdı.

*Səməd Vurğunun 90 illik yubleyi.* Şairin 90 illik yubleyinin ölkə səviyyəsində keçirilməsi haqda ulu öndər 1996-cı ildə Sərəncam imzalamışdı. Yubiley tədbirinə qatılan, şairin yaradıcıllığını yüksək dəyərləndirən ümummilli lider vurğulamışdı ki, *"Səməd Vurğunun yaradıcıllığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcıllığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və yeni-yeni əsərlər yaranacaqdır"* (5).

*Bəxtiyar Vahabzadənin 70 illik yubileyi.* Xalq şairi, dramaturq, ictimai xadim Bəxtiyar Vahabzadənin 70 illik yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün ulu öndər 1995-ci ildə Sərəncam imzalayıb. Baş nazirin müavini, Bakı şəhərinin meri, Elmlər Akademiyasının prezidenti, Təhsil naziri, Mədəniyyət naziri, Mətbuat və informasiya naziri, Bakı Dövlət Universitetinin rektoru tədbirin keçirilməsinə məsul olan yüksək dövlət məmurları idi.

Xalqını ürək dolusu sevən şair 1981-ci ildə yazıb arxivində gizlətdiyi bir şeirində poetik kimliyini, xalqının milli təəssübkeşi olduğunu belə tanıdır (6, s.28):

*İçimi göstərmədim cahil tutan güzgüyə,*
*Üzdə gülüb, ürəkdə müşkülümə ağladım.*
*Millətimin dərdini ünvanlayıb özgəyə,*
*Başqasının yasında öz ölümə ağladım.*

*Bəxtiyar Vahabzadə "İstiqlal" ordenli millətçi xadim kimi.* Azərbaycan xalqı Bəxtiyar Vahabzadəni təkcə böyük şair kimi tanımır, həm də böyük millətçi xadim kimi tanıyır. Bunu hamıdan yaxşı bilən ulu öndər 1995-ci ildə ona "İstiqlal" ali ordenini verir və imzaladığı Sərəncamda şair "Azərbaycan xalqının milli azadlığı uğrunda xüsusi xidmətləri olan şəxs" kimi tanıdılır.

Bəxtiyar Vahabzadə filosof-şair, böyük ictimai xadim olmaqla yanaşı, həm də bəşəriyyətin gələcəyini düşünən böyük insandır. Şairin ikicə misrası onun böyük insan olduğunu, bəşəriyyəti düşündüyünü beləcə çatdırır (6, s.201):

*Qorxuram, dünyada bir zaman gələ,*
*İnsanlar yaşaya, insanlıq ölə.*

*Xəlil Rza Ulutürk ədəbiyyatşünas, poetik tərcüməçi kimi.* Şair bir çox mövzularda tədqiqatlar aparmışdır – Füzuli, Vaqif, Sabir, Cavid yaradıcıllığını araşdırıb, elmi-publisistik və ədəbiyyatşünaslığa dair əsərlər yazmışdır. Bu əsərlərdə nəzəri, ədəbi-bədii təhlillər yer alır. O, bir təkcə şair deyil, həm də müstəqillik ideologiyasına köklənən ədəbiyyatşünas alimdir.

X.R. Ulutürk rus, tatar, türk xalqları ədəbiyyatından poetik tərcümələr edib. Dahi Nizaminin 3 poeması – Sirlər xəzinəsi, Yeddi gözəl, iskəndərnamə əsərlərini farscadan Azərbaycan dilinə bədii olaraq tərcümə etmişdir.

*X.R. Ulutürk türkçü, istiqlal şairi kimi.* O, Sovetlər Birliyinin çöküşündən qabaq Azərbaycan xalqının Milli azadlıq hərəkatına qoşulur, izdihamlı mitinqlərə qatılır, sovet qoşunlarının Azərbaycandan çıxmasını və Azərbaycanın tam müstəqilliyə qovuşmasını tələb edən milli liderlərdən biri oldu. Aparıcı milli görüşlərinə görə onu həbs edərək Moskva həbsxanasına göndərirlər.

20 Yanvar faciəsinin acılarını təsvir edən "Əlvida Azərbaycan" poemasını yazdı. 20 Yanvar şəhidlərinin xatirəsini və milli azadlıq ideyasını yaşadan "Qanım bayrağımdadır" şeirlər toplusunu qələmə aldı. İnsan azadlığı ideyalarının daşıyıcısı olan "Dənə gələn toyuqlar" əsərini ərsəyə gətirdi. "Azadlıq" adlı şeir şairin insan kimliyini, şair kimliyini, milli türkçü mübariz kimliyini ortaya qoyur (7):

*Azadlığı istəmirəm,*
*Bir həb kimi, dərman kimi.*
*İstəyirəm səma kimi,*
*Günəş kimi, cahan kimi*
*Çəkil, çəkil, ey qəsbkar,*
*Mən bu yurdun gur səsiyəm,*
*Gərək deyil sısqa bulaq,*
*Mən ümmanlar təşnəsiyəm.*

*X.R. Ulutürk Xalq şairi olaraq.* Ulu öndər 1992-ci ildə imzaladığı Fərmanla ona "Xalq şairi" fəxri adını verdi, "Azərbaycan milli ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə".

*X.R. Ulutürk "İstiqlal" ordenli milli xadim kimi (ölümündən sonra).* Ulu öndər 1995-ci ildə Fərman imzaladı, bu dövlət sənədi ilə şairi "İstiqlal" ordeni ilə təltif etdi, "Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə".

*Anar "İstiqlal" ordenli yazıçı kimi.* Azərbaycan ədəbiyyatının görkəmli yazarı, dramaturq və ssenaristidir. Onu 60-cı illərdə tanıyan ulu öndər davamlı olaraq

onun ədəbi yaradıcıllığını izləmiş, istedadlı bir yazar olduğunu anlamış, yaradıcıllığını dəyərləndirmiş, bir çox görüş və iclaslarda ünvanına xoş sözlər söyləmişdir.

Anarın 60 illiyində (1998-ci ildə) ulu öndər ona təbrik məktubu ünvanlayır, onu "İstiqlal" ordeni ilə təltif edir, "Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə".

Ulu öndər yazıçı Anarın anası Nigar xanım Rəfibəylinin Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışdığını, atası Rəsul Rzanın Azərbaycanın böyük şairi olduğunu vurğulayaraq demişdi ki, *"Onların övladı, Azərbaycanın böyük yazıçısı, Yazıçılar Birliyinin sədri hörmətli Anar da əcdadlarının, anasının, atasının işini davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Görürsünüz, Gəncə nə qədər böyük insanlar yetişdirir. Bir ailədə üç xalq yazıçısı – Rəsul Rza, Nigar Rəfibəyli, Anar"* (8).

*Anar xalq yazıçısı olaraq.* Ulu öndər 1998-ci ildə imzaladığı Fərmanla bir qrup Azərbaycan yazıçısına, o sıradan Anara (Rzayev Anar Rəsul oğluna) "Xalq yazıçısı" fəxri adını verib, "Azərbaycan nəşrinin inkişafındakı böyük xidmətlərə görə".

Göründüyü kimi, ulu öndərdən "İstiqlal" ordenini, "Xalq yazıçısı" fəxri adını alan Anar ulu öndərin təsəvvüründə bu ədəbi ünvanlarla anılır: Azərbaycanın böyük yazıçısı, Yazıçılar Birliyinin sədri, hörmətli Anar, anası və atasının işini davam etdirən, Azərbaycan ədəbiyyatının-mədəniyyətinin inkişafına xidmətlər göstərən, Azərbaycan nəşrinin inkişafında böyük xidmətləri olan.

**Mövzunun aktuallığı.** Ulu öndərin hər söz və kəlamı, gördüyü hər iş məntiqdən doğaraq konkret hədəfə yönəlir. "Heydər Əliyev və Azərbaycan ədəbiyatı" adlı mövzu hər zaman aktual olub, indi də aktualdır. Çünki ulu öndər Azərbaycan ədəbiyyatı, yazar və şairləri, böyük alimləri ilə davamlı olaraq ünsiyyət saxlayıb, onlara maddi və mənəvi dəstək göstərib, məişət və elmi problemlərini həll edib.

Mövzunun aktuallığı odur ki, ulu öndərin Azərbaycan ədəbiyyatı ilə bağlı fikir və konsepsiyasını sistemə salır, konkret qaynaqlara - ədəbiyyatşünas alimlərin elmi kitablarına dayanaraq, şəxsi fikir və yanaşmalarını sərgiləyir, heç bir alim və tədqiqatçının şəxsi rəy və fikrindən istifadə etmədən. İkinci aktuallığı odur ki, ulu öndərin kəlamları ədəbiyyata, onun inkişafına, gələcək taleyinə, ədəbi dilə, nitq mədəniyyətinə, milli irs və milli kimliyə ünvanlansa da, onlarda millətin gələcəyi, gənc nəslin təhsil və tərbiyəsinə aid bir çox fikirlər də yer alır. Qısaca təsvir olunan bu məsələlər mövzunu istər-istəməz aktual edir.

**Praktik əhəmiyyəti.** Bu tədqiqat işi dil siyasəti, milli təhsil, nitq mədəniyyəti, mədəni irs, dilçilik, ədəbiyyatşünaslıq kimi elmi sahələr üçün istifadə oluna bilər.

**Nəticə.** Məqalədən alınan nəticələr bunlardır:

1. Heydər Əliyevin çıxışları – ritorika və səmimi ünsiyyət örnəyidir;
2. Azərbaycan poeziyası və nəsrinin böyük dəstəkçisidir;
3. Azərbaycan elm, mədəniyyət, incəsənət xadimlərinin dostudur;
4. Nitqində milli yaddaş, milli kimlik, vətən sevgisi, ədəbiyyat sevgisi və gənclərin xoş gələcəyi üçün ümid sərgilənir.

## Ədəbiyyat

1. Paşayeva N., Yeniləşən ədəbiyyatın yeni insanı, Bakı, “ATİ”, 2004, 222 s.
2. Əhmədova S., Heydər Əliyev və ədəbi-tarixi proses (Monoqrafiya), Bakı, “Elm”, 2013, 156 s.
3. Sadıqlı A., Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili, Bakı, “Mütərcim”, 2011, 180 s.
4. Babaxanlı G., Heydər Əliyev və Hüseyn Cavid, Bakı, “Elm və təhsil”, 2020, 160 s.
5. Xalq şairi Səməd Vurğunun 90 illik yubileyi. https://lib.aliyev-heritage.org/
6. Vahabzadə B., Ədəbi düşüncələr, Bakı, “Təhsil”, 2000, 216 s.
7. Azadlığı istəmirəm zərrə-zərrə/X.R.Ulutürk. https://sanet.az/
8. Ümummilli lider Heydər Əliyev memuar ədəbiyyatda. https://preslib.az/pdf/

## XÜLASƏ

### *Heydər Əliyev və Azərbaycan ədəbiyyatı*

Bu məqalənin iki başlığı var: Bədii ədəbiyyat platonik güc olaraq; Azərbaycan ədəbiyyatında Heydər Əliyev himayəçi-lider kimi.

Birinci başlıqda bədii ədəbiyyat anlayışına qısaca açıqlama verilir, ədəbiyyatın insan mənəviyyatı və tərbiyəsinə təsirindən danışılır. Qeyd olunur ki, bədii ədəbiyyat insanın düşüncə və hisslərini motivasiya edən bir potensialdır. Vurğulanır ki, bədii ədəbiyyat sehirli bir güc olan Sözdən qaynaqlanır. Diqqətə çatdırılır ki, bədii ədəbiyyat insanı düşündürür, həyatı ona anladır, həyatın acı və şirin səhifələrini açır.

İkinci başlıqda Heydər Əliyevin vətənsevər, ədəbiyyatsevər, gənclərin xoş gələcəyini düşünən bir şəxsiyyət olması haqda qısa informasiya verilir. Bu siyasi lider hələ 1981-ci ildə Azərbaycan şair və yazıçıları qarşısında çıxış edərkən onlara beş mesaj verib: Azərbaycan ədəbi dilinin saflığı qorunsun; insanların nitq mədəniyyətinə qayğı göstərilsin; yazıçı – dilin ədəbi normasının qanunvericisi olmalıdır; bir sıra yazıçılar tələblərin səviyyəsində dura bilmirlər; ayrı-ayrı yazıçıların əsərlərində dil xətalarına yol verilir.

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, Heydər Əliyev, bədii ədəbiyyat, şair, yazıçı, alim, gənclər

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 309-316*

**NOVRUZALIYEVA SEVDA**
**ALIYEVA NUSHABA**

**Abstract**

**HEYDAR ALIYEV AND AZERBAIJANI LITERATURE**

This article has two headings: *Fiction as a Platonic Power*; *Heydar Aliyev as a Patron-Leader in Azerbaijani Literature*.

In the first heading, the concept of fiction is briefly explained, and the influence of literature on human spirituality and moral education is discussed. It is noted that fiction is a potential force that motivates human thought and emotions. It is emphasized that fiction originates from the Word, which is a magical power. Attention is drawn to the fact that fiction makes a person think, helps them understand life, and opens the bitter and sweet pages of life.

In the second heading, brief information is given about Heydar Aliyev as a patriotic, literature-loving personality who cared about the bright future of young people. This political leader, while addressing Azerbaijani poets and writers in 1981, conveyed five messages to them: the purity of the Azerbaijani literary language must be preserved; attention should be paid to people’s speech culture; the writer must be the legislator of the literary norms of the language; some writers fail to meet the required standards; language errors are allowed in the works of certain writers.

**Keywords:** Azerbaijani literature, Heydar Aliyev, fiction, poet, writer, scholar, youth

**Rəyçi: dosent Zərifə Məmmədova**